

## ROYAL MƏMMƏDOV

***Röyal Məmmədov 1995-ci ildə Gədəbəy rayonunun Novo-Saratovka kəndində anadan olub. Şəmkir rayonu N.Nəsirov adına Ələsgərli kənd tam orta məktəbini, sonradan Gəncə Dövlət Universitrtinin filologiya fakültəsini Azərbaycan dili və ədəbiyyatı müəllimi ixtisası üzrə bitirib. Hazırda Gədəbəy rayonu A.Qasımov adına Alnabat kənd tam orta məktəbində Azərbaycan dili və ədəbiyyat fənni üzrə müəllim işləyir.***

***Bədii yaradıcılığa həvəsi böyükdür. Şeirlər yazır və daha çox mütailə edir. R.Məmmədovun iki şeirini oxuculara təqdim edirik.***

### *QAZANA BİLƏYDİM MƏHƏBBƏTİNİ*

Sonu xoşluq ola kaş hər niyyətin,
Eşqin sınağına dözərdim mətin.
Öpüb əllərindən ani möhnətin,
Qazana biləydim məhəbbətini.

Yarın qapısını döyərdim yüz gün,
Dərdindən, sərindən olmazdım üzgün.
Gözlərin bircə an güləydi süzgün,
Qazana biləydim məhəbbətini.

Qəlblərə od sala sevgi yağışı.
Sanardım yazımdır boranı, qışı.
Qəlbimə dağ olub subaylıq daşı,
Sına bu Royalın sədaqətini,
Amandır, çox görmə məhəbbətini!

### *GEDİR*

Zülmət qaranlıqda bu nə qiyafət,
Göydə ay-ulduzdan qəmli ziyafət.
Ayrılıq bileti alıb o afət
Bu gecə sevgimin qatarı gedir.

Zamanmı günahkar, ya fələk tərsmiş?
Sevdiyim o ahu mələk tərs imiş.
Bir ümid çırağı yansa bəs imiş,
Bu gecə sevgimin qatarı gedir.

Sonu xoş firəvan sevgi hardadır?!
Bəlkə hər varlığın sirri vardadır?!
Royal, sevgin artıq royalardadır
Bu gecə sevgimin qatarı gedir.